# Bir şəklin tarixi

Ötən əsrin 70-ci illərindən başlayaraq Sumqayıt şəhəri ümummilli lider Heydər Əliyevin qayğısı nəticəsində təkcə respublikamızda deyil, keçmiş SSRİ miqyasında tanınan yaşayış mərkəzinə çevrildi. Tikilən yeni zavodlar, yaradılan sənaye müəssisələri on minlərlə insanın iş yeri idi. Həmin dövrdə çox az şəhər tapılardı ki, Sumqayıt kimi inkişaf edə bilsin.



Ümummilli lider Heydər Əliyev vaxtaşırı Sumqayıta gələr, burada aparılan quruculuq işləri, mədəniyyət ocaqlarının inşası ilə maraqlanar, ictimaiyyət nümayəndələri ilə görüşlərdə onları dinləyər, dəyərli tövsiyələr verərdi.

Ulu öndər tikinti obyektlərini necə yüksək dəyərləndirərdisə, mədəniyyət, istirahət guşələrinə, insanların mənəviyyatının qorunmasına və inkişafına da o cür diqqətlə yanaşardı. Sumqayıtın mədəniyyət ocaqlarına nəzarət edər, mənəvi məsələlərin yüksəlməsini, mili adət-ənənələrimizin qorunmasını, şair və yazıçılara qayğı göstərilməsini əhaliyə tövsiyə edərdi.

Həmin dövrdə inşa edilən mədəniyyət saraylarından biri Sumqayıt Dövlət Dram Teatrıdır. Maraqlıdır ki, bina üçün yeri də ulu öndər seçmişdi. Teatrın səhnəsində təkcə Azərbaycan deyil, dünya mütəfəkkirlərinin də əsərləri tamaşaya qoyulurdu.

Teatr işçilərinin böyük məhəbbətlə əzizlədikləri bir şəkil var. Həmin şəkil uzun illərdir ki, teatrın foyesini bəzəyir. Onu da qeyd edim ki, hazırda teatrın binası təmirdədir. Yerli icra rəhbərliyi ulu öndərin yadigarı olan bu binanın yenidən qurulmasına dair xüsusi sərəncam imzalayıb.

Bu şəklin maraqlı bir tarixi var. 1981-ci ildə oynanılan tamaşalardan biri Nəriman Həsənzadənin “Bütün Şərq bilsin” əsəri idi. Vətənpərvərlik, yenilik, sabaha inam ideyaları ilə köklənmiş tamaşanın premyerasında ümummilli lider Heydər Əliyev də iştirak edirdi. Tamaşa sona çatdıqdan sonra səhnəyə qalxan Heydər Əliyev aktyorlarla görüşdükdən sonra üzünü zala tutub dedi: “Baxın bizim necə gözəl əsərlərimiz var. Belə əsərlərdən çox yazılmalı, onların çoxu tamaşaya qoyulmalıdır. Təkcə Şərq deyil, bütün dünya Azərbaycan mədəniyyətinin nəyə qadir olduğunu görməlidir. Unutmayaq ki, biz böyük bir tarixin daşıyıcılarıyıq. Milli-mənəvi sərvətimiz olan hər nə varsa qorunmalı, gələcək nəslə ötürülməlidir. Bunun üçün ümumi güc birləşməli, mədəniyyətimizi yaşatmalıyıq. Bu bizim gələcək nəsillər qarşısında mənəvi borcumuzdur”.

Teatrımızın kollektivi harada olursa yeri düşəndə ulu öndərin mədəniyyətimizə göstərdiyi misilsiz qayğıdan söz açır. Bu da təbiidir. Ümummilli liderin xeyir-duası ilə inkişaf dövrü keçən Sumqayıt Dövlət Dram Teatrının səhnəsindən onlarca sənətkar pərvazlanmış, teatr məktəbinin korifeylərinə çevrilmişdir. Muxtar Dadaşov, Barat Şəkinskaya və onlarca digərləri bu ocağın yetirmələridir.

***Namis ŞİRMƏMMƏDOV,***
***Sumqayıt Dövlət Dram Teatrının rejissoru,***
***respublikanın əməkdar artisti***